*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*

*Derleme Makale | Review Article*
*Geliş tarihi |Received:01.09.2024*
*Kabul tarihi |Accepted:29.09.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Dürdanə Yusifova**

https://orcid.org/0009-0002-8276-3484
*Leading researcher, PhD, Institute of Archaeology and Anthropology, Azerbaijan National Academy of Sciences, Azerbaijan, durdaneyusifova57@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Yusifova, D. (2024). Azərbaycanda "Torpaqqala" Adlı Abidələrin Arxeoloji - Nəzəri Öyrənilməsi Tarixinə Baxış. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3246-3256.

# Azərbaycanda "Torpaqqala" Adlı Abidələrin Arxeoloji - Nəzəri Öyrənilməsi Tarixinə Baxış

***Xülasə***

*Azərbaycanın Şimal-Qərb və qərb bölgəsinin"Torpaqqala" şəhər tipli yaşayış məntəqələri o cümlədən, Qafqaz Albaniyasının antik dövr tarixi ərazilərindən biri olan Cənubi Dağıstanın "Torpaqqala" arxeoloji abidəsində şəhər mədəniyyətinin öyrənilməsi Azərbaycan arxeologiyasında öz aktuallığını saxlayır. Məqalədə "Torpaqqala" arxeoloji abidələrində antik, ilk və orta əsrlər dövrü üçün səciyyəvi olan yaşayış yerləri, müdafiə tikilillәri, təssərrüfat əhəmiyyətli tikili qalıqları, qəbir abidələri və onlardan aşkar olunmuş arxeoloji materiallar təhlil edilib onların Azərbaycanın ilk orta əsrlər dövrü şəhər mədəniyyəti sistemində yeri müəyyən edilmişdir. Məqalənin mənbə bazasını yerli və əcnəbi arxeoloqların elmi araşdırmaları və son dövrdə aparılan arxeoloji qazıntı işlərinin materialları təşkil edir. Arxeoloji tədqiqat işinin əsas obyekti olan Torpaqqala arxeolji abilərinin öyrənilməsində regionun antik və ilk orta əsrə aid müxtəlif şəhər yerlərinin müqayisəli təhlili, mədəni təbəqələrin stratiqrafik xüsusiyyətlərinin təsnifatı aparılmışdır. Bu məqsədə nail olmaq üçün ümumi təhlil metodundan istifadə olunub.*

**Açar sözlər:** *Azərbaycan abidələri, Torpaqqala, arxeoloji abidə, qala-şəhər, istehkam-qalalar*

Creative Commons Licence BY NC

# Overview of the archaeological history of monuments named Toprakkale in Azerbaijan: Theoretical Study

***Abstract***

*The study of urban culture in the urban settlements of "Torpaggala" in the North-Western and Western regions of Azerbaijan, as well as in the archaeological monument "Torpaggala" in South Dagestan, one of the ancient historical regions of Caucasian Albania, remains topical. The article examines the dwellings, defense structures, remains of economically important buildings, burial monuments and archaeological materials found in the archaeological monuments of "Torpaggala" and determines their place in the system of urban culture of the early medieval period of Azerbaijan. The source base of the article is the scientific researches of local and foreign archaeologists and the materials of recent archaeological excavations. In the study of the archaeological monuments of Toprakkale, which is the main subject of archaeological research, a comparative analysis of different urban spaces of the region from Antiquity to the early Middle Ages, classification of stratigraphic features of cultural layers was carried out. A general method of analysis was also used to achieve this goal.*

***Keywords:*** *Azerbaijani monuments, Toprakkale, archaeological monument, fortress-city, fortifications-fortresses*

## Giriş

Antik və ilk orta əsrlərdə qədim Azərbaycan dövləti olan Albaniya Cənubi Qafqazın aparıcı dövlətlərindən biri olmuşdur. Albaniyanın dini – mədəni, iqtisadi - siyasi həyatının tərkib hissəsi olan antik, ilk orta əsr və orta əsrlər dövrü yaşayış yerlərinin qala və istehkamların müəyyən bir hissəsinin lokalizəsi, orada yaşayan əhalinin məskunlaşma dinamikası, dini baxışları və mədəni səviyyələri barədə məlumatlar tam şəkildə öz əksini tapmayıb və problemin arxeoloji araşdırılması xüsusi aktuallıq kəsb edir. Torpaqqala arxeoloji abidələrimiz qədim Albaniya dövlətimizin inzibati-siyasi ərazi vahidliyində mövcud olmuş yaşayış yerlərimizdir. Tədqiqat zamanı Torpaqqala adlı arxeoloji abidələrinin təbii-coğrafi mövqeyi və yaşayış yerlərindəki tikili qalıqlarının inşaat xüsusiyyətləri nəzərə alınmış Yaxın Şərq mədəniyyəti arxeoloji abidələri ilə paralelləri aparılmışdır. Qədim Albaniya dövlətimizin şimal-qərb və qərb torpaqlarından olan Tovuz, Qax, Ağsu, Bərdə, Dərbənd ərazilərində "Torpaqqala" adlandırılan bir neçə yaşayış yerlərinin qalıqları üzə çıxarılmış, bunlardan bir neçəsi geniş miqyasda tədqiq edilərək arxeoloji-elmi ədəbiyyata daxil edilmiş, tədqiqatların müəyyən bir qismi isə kəşfiyyat xarakterli olduğundan qısa hesabatlarda öz əksini tapmışdır. Sözügedən yaşayış məntəqələrində XX əsrin 50-60-ci illərindən başlayaraq arxeoloji tədqiqat işləri fasilələrlə davam etdirilmişdir. Bu baxımdan L.B. Qımırya, E .A. Пахомовun, R. M. Vahidovun, R. B. Göyüşovun, Q. Aslanovun, M. C. Hacıyevin, Q. C. Cəbiyevin, A. M.

Məmmədovun, E. Ə. Qasımovun, Смирнов К. Ф, M. C. Xəlilovun tədqiqatları əhəmiyyətlidir.

Çiy kərpic və möhrədən inşa edilən, "Qala – istehkam", "yaşayış yeri" "şəhər yeri" adlandırılan "Torpaqqala" abidələrinin toponimi bir tərəfdən tarixi-arxeoloji faktları üzə çıxarır, digər tərəfdən isə xalq etimalogiyasına əsaslanan "toprakkale"sözünün türkdilli tayfalara məxsus olduğu ilə izah edilir.Orta Asiyada tədqiq edilmiş ilkin şəhər mədəniyyətinin nümunələrindən biri olan"Torpaq-Kala", " Toprak- Şehri" şəhər xarabalığı Qaraqalpaq ASSR ərazisində yerləşir. 1938-ci ildə ilk dəfə tarixçi, arxeoloq S. P. Tolstov tərəfindən tədqiq edilmişdi. Yerləşdiyi ərazi 120 ha-dır.B.e. I-III əsrlərdə Kuşan dövrünün Orta Asiya şəhərləri arasında Torpaq-qala şəhər yeri Xarəzm hökmdarlarının iqamətgahı olmuşdur. Bu dövrün memarlıq nümunələri "divar ətəyində yaşayış şəhərciyi"adlanırdı. Şəhər planda düzbucaqlı formada olub, çiy kərpicdən hörülmüş möhkəm qala divarları və bürclərlə əhatə edildiyi qeyd olunur, qərbində isə saray xarabalığının qalıqları aşkar edilmişdi. Sarayın ətrafında qeyri simmetrik qurulmuş üç qüllə qeydə alınıb. Yaşayış və təsərrüfat binalarında arxeoloji qazıntılar aparılmış, saxsı qablar, silahlar, bəzək əşyaları, dəri və ağac üzərində təsərrüfat yazıları olan sənədlər və s. maddi sübutlar üzə çıxarılmışdı. Orta Asiya tarixinin Kuşan dövründə ölkənin iqtisadi və mədəni həyatında şəhərin rolunun yüksəldiyi qeyd olunur. Torpaq-qala təkcə Orta Asiya deyil həm də Qədim Şərqin abidələri sırasına daxildir (Nerazik & Rapoport, 1981, s. 6-9). Torpaqqala abidələrinin yayılma arealına daxil olan səhər-qalalardan biri Türkiyənin Van şəhərinin şimal-şərqində yerləşən Toprakkale abidəsidir. E.ə. VIII-VI əsrlərdə Urartu çarlarının iqamətgahı olmuş Rusaxinli qalasının xarabalığı olan təpədə 1879-cu ildən başlayaraq fasilələrlə qazıntılar aparılmış, saray və məbəd qalıqları tədqiq edilmişdir. Burada Urartu mədəniyyətini səciyyələndirən çoxlu maddi mədəniyyət qalıqları ( tunc və fil sümüyündən əsasən allah fiqurları və qrifonlar) tapılmışdır. 1912 –ci ildə İ. A. Orbelin, 1916-cı ildə isə N. Y. Maar tərəfindən Toprakkalede arxeoloji qazıntılar aparılmış, materialların bir çoxu Ermitaja (Leninqrad) aparılmışdır (Salvini, 2006).

## 1.Azərbaycanda "Torpaqqala" arxeoloji abidələrinin nəzəri və arxeoloji tədqiqi

Cənubi Qafqazda o cümlədən Azərbaycanda "Torpaqqala" adlı abidələrdə aparılan çöl tədqiqatları xarakterinə görə 2 mərhələdə tədqiq olunur; 1.Kəşfiyyat xarakterli çöl tədqiqatları XX əsrin 1938-1958-ci illərini; 2. XX əsrin 1958-1967-ci illərindən, 1970-1980 - ci illərinə və XXI əsrin ikincionilliklərində aparılanarxeoloji qazıntı işləri.

1938-ci ildə Azərbaycanda olmuş sovet arxeoloqu professor Y. A. Paxomov tərəfindən Tovuz rayonunun Torpaqqala adlı abidəsinə baxış keçirilmişdir. Abidəyə baxış keçirmiş Y.A.Paxomov yazır ki; "Kürün sahilində yerli əhalinin "Torpaqqala" adlandırdığı nəhəng şəhər

yerinin qalıqlarına baxdım. Bu abidə Azərbaycanın şəhər tipli yaşayış yerinin qalıqları olmuş və XI-XIII əsrlərə aiddir ” (Pakhomov, 1938, s, 31-32). Torpaqqalada aparılmış arxeoloji tədqiqat işlərinin stratifikasiyasının nəticələrinə nəzər saldıqda aydın olur ki, bu abidədə həyatın təməli antik və ilk orta əsrlərdə qoyulmuş XI-XIII əsrlərə qədər davam etmişdir. R. M. Vahidovun rəhbərliyi ilə 1960-cı il istisna olmaqla 1961-1967-ci illərdə Torpaqqala (Qax rayonu) ərazisində arxeoloji qazıntı işləri aparılmış, Torpaqqalanın “Saqqızlı” deyilən yaşayış yerindən alban xristian qəbirləri aşkar etmişdir.

1958-1967 –ci illərdə Azərbaycanın şimal-qərb bölgəsinin Qax rayonu ərazisində Qanıx çayının sol sahilində Torpaqqala (Əyriçayın Qanıxa töküldüyü yerin yaxınlığında) şəhər xarabalığı aşkar edilmişdir. Abidənin yerləşdiyi təpənin uzunluğu 500m, eni 15m-dən 160 m, hündürlüyü 20-25metr, sahəsi 4,5 ha qeydə alınmışdır. Təpənin Qanıx çayı tərəfdən dağılmaqda olan şimal- qərb kənarı 90° altında sıldırım, şimal –şərq və cənub-şərq kənarları isə yağış sularının tədricən yuması nəticəsində 35-45° enişlikdədir. Enişlik bəzi yerlərdə 60-70°-yə çatır. Yaşayış yeri çay səthindən 30-35m, ətraf ərazidən isə 20-30 m hündürlükdə yerləşir. Aparılmış qazıntılar zamanı möhrə, çiy və bişmiş kərpicdən hörülmüş qala divarları, yaşayış binalarının qalıqları, gil, metal, daş və şüşədən hazırlanmış müxtəlif maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır. “Torpaqqala”nın şimal-şərqində yerləşən qəbristanlıq ərazisində küp və xristian qəbirləri tədqiqata cəlb edilmişdir. Eramızın ilk əsrlərindən XIV-XV əsrlərinədək mövcud olan “Torpaqqala” “Torpaqqala” tədqiqatçılar tərəfindən Azərbaycan şəhərlərindən biri kimiqeyd edilir (Vahidov, 1965, s, 201-207). “Torpaqqala” yaşayış yeri yaxınlığında yerləşən katakomba tipli qəbirdən tapılmış vaza eramızın III əsrinə aid edilmişdir. Yaşayış yerinin mədəni qatlarından dulus kürələri, şüşə istehsalı ilə əlaqədar olan ocaq yerləri aşkar edilmişdir.

1961-1963-cü illərdə Torpaqqalada aparılmış çöl tədqiqatı və qazıntı işləri nəticəsində, əhalinin məişətini, təsərrüfatını və dini görüşlərini əks etdirən xeyli abidə aşkar edilmişdir. Təpə üzərində yerləşən yaşayış yerində, təpənin cənub-şərq tərəfində yerləşən sənətkarlar məhəlləsində aparılan arxeoloji qazıntılarda mədəni təbəqələrin stratiqrafiyası və abidələrin xarakteri müəyyən edilmişdi. Üç mədəni təbəqənin ümumi qalınlığı, sahənin relyefindən aslı olaraq 3,5-4 metrə çatdığı qeyd olunur.Yaşayış yerinin yalnız üst mədəni təbəqəsindən aşkar edilmiş bina qalıqları dördkünc çiy və bişmiş kərpiclərdən inşa edilmişdi. Əhalinin təsərrüfat həyatında başlıca yeri əkinçilik, maldarlıq və sənətkarlıq tutmuşdur. Dulusçuluq əsas sənət sahələrindən birinə çevrilmişdir. İlk orta əsrlərdə yerli şüşə istehsalının olduğunu əsaslı surətdə söyləməyə imkan verən şüşə kürəsinin qalıqları və Zaqafqaziya ərazisində indiyədək məlum

olmayan unikal kərpic bişirən kürələr aşkar olunmuşdur. Belə kürələrin qalıqları qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqələrdən - Mingəçevir, Quba rayonunun Xuçbala yaşayış yerlərində aşkar edilmişdi. Torpaqqala yaşayış yerində aparılan qazıntılar zamanı üç tip qəbir aşkar edilmişdi .Yaşayış yerinin ətrafında xam torpaqda torpaq və küp qəbirləri, Saqqızlıq adlanan qədim qəbristanlıqda isə küp və xristian qəbirləri aşkar edilmişdir. Burada e.ə I - b.e. I əsrdən V-VII əsrlərdə daxil olmaqla davamlı yaşayışın olduğu sübut edilir (Vahidov, 1965, s. 201-207). Tovuz "Torpaqqala"sı və Qax rayonundakı "Torpaqqala" abidələrinin hər ikisinin şəhər qalıqları olduğu qeyd edilir. Mənbələrdən məlumdur ki, hələ antik dövrdə Kür çayı su yolu kimi istifadə olunurdu. Bu yol ilə Qara dənizdən bəzi yerlərdə qurudan istifadə etməklə, Kaspi dənizinə, oradan da Orta Asiya vasitəsi ilə Hindistana gedirdilər. Qədim Mingəçevir də bu yolun üzərində yerləşir. Geoloji baxımdan "Torpaqqala" abidəsində çətin və təhlükəli yol keçidlərinin olması nəzərə alınaraq bu abidənin Naxcıvan Əlincəqalası, İsmayıllı rayonundakı Cavanşir qalası ilə oxşarlığı olduğunu demək olar.

Tovuz rayonu ərazisindəki "Torpaqqala" yaşayış yerində ilk arxeoloji qazıntılar 1961-ci ildə "Şamxor arxeoloji ekspedisiyasının"Tovuz dəstəsinə rəhbərlik edən R. M. Vahidov tərəfindən aparılmışdır. Yaşayış yeri rayonun Xatınlı kəndindən 16km-də Kürün sağ sahilində yerləşir. Bu yerlər yerli əhali tərəfindən "xunəm" düzü adlandırılır. Təbi-coğrafi relyefinə görə planca uzunsov formada olan təpənin uzunu enindən dörd dəfə çoxdur. Bu abidənin ümumi sahəsi 6 hektara yaxın olub, tədqiq edilən mədəni təbəqənin qalınlığı bəzi yerlərdə üç metrdən artıq olduğu qeyd edilir. Mədəni təbəqənin bəzi yerlərdə 3m-dən artıq olmasının tədqiqatçılar bu şəhərdə uzun müddətli yaşayışın olması ilə izah olunur. Aparılmış arxeoloji qazıntılar zamanı çoxlu sayda şirsiz və şirli qablar, metal əşyalardan bıçaq, iskənə, mismar, həmçinin bəzək əşyalarından olan şüşə bilərziklər aşkarlanmışdır. Buradan tapılmış metal şlaklar (çıxarlar), bişirilərkən xarab olmuş şirli və şirsiz qab hissələri yerli metalişləmə və dulusçuluq sənət sahələrinin mövcud olduğunu təsdiq edən maddi sübutlardır. Öz formasına görə ilk orta əsrlərə aid olan metal "xaç" əşya burada yaşayan alban əhalinin islamaqədərki dini inancından xəbər verir.

R. M. Vahidovun rəhbərliyi altında Şamxor (Şəmkir) arxeoloji ekspedisiyasının Tovuz dəstəsi tərəfindən 1972-1977-ci illərdə Azərbaycanın Tovuz rayonu ərazisində yerləşən "Torpaqqala" abidəsində arxeoloji qazıntı işləri davam etdirmiş, ilkin qazıntıların nəticələrinə uyğun olaraq Kür çayının sağ sahilində böyük təpə üstündə yerləşən həmin ərazinin orta əsrlərə aid şəhər xarabalığının qalıqları olduğu qənaətinə gəlinmişdir. Kür çayı səviyyəsindən 100-120 m hündürlükdə yerləşən üst təbəqədən iri çay daşından hörülmüş qala divarı qalıqları, şəhəri su ilə təchiz edən müxtəlif qurğular *(*Vahidov & Guliyev, 1974, s. 3-6; Gasimov, 2002,

s. 72 ) dulus kürələri tədqiq olunmuş, məişət tikililəri, dini abidələr (Məbəd yeri), müxtəlif maddi-mədəniyyət qalıqları ilə zəngin olan 4 metr qalınlığında mədəni təbəqə aşkar edilmişdir. Ticarət yolu üzərində yerləşən yaşayış yeri monqol işğalına qədər iqtisadi və strateji əhəmiyyətə malik olmuş tikili qalıqlarıdır . Tovuz rayonunda Kür çayının sol sahilində yerləşən Torpaqqala qala - istehkam abidəsinin IV qazıntı sahəsində təpənin qərb qurtaracağında arxeoloji qazıntılar zamanı su ötürücü gil tünglər aşkar edilmişdir. Gil tünglər daşdan düzəldilmiş silindir şəkilli, qalın divarları olan piltələrin içərisindən keçərək əhəng məhlulu iləbirləşdirilmişdir (Gasimov, 2002, s. 73). Uçub dağılmış yerlərdən əldə olunmuş gil tünglərin ( su ötürücü ) bir neçəsinin ölçüləri qeydə alınmışdır. Əhalinin su təchizatının təmin edilməsi üçün yaradılan bu qurğulardan həm şəhər daxilində, eləcədə şəhər ətrafında quraşdırılması şəhər mədəniyyətinin vacib elementlərindən idi.

Qafqaz Albaniyasının ilk orta əsrlərdə şimal vilayətlərindən biri Çola (Cora, Çor) idi. Bu vilayət ərazi Dərbənd keçidindən cənuba doğru - Baş Qafqaz sıra dağlarının şərq qolunun Kaspi dənizinin yaxınlığında olan dənizsahili zolağını əhatə edirdi. Torpaqqala şəhərgahıDərbənd şəhərindən 20kmcənubda Bilici qəsəbəsinin şimal-qərb hissəsində, Rubas və Gülgeri çayları arasındakı düzənlikdə yerləşir. 2004-2005-ci illərdəki araşdırmalar nəticəsində Torpaqqalanın 100 hektardan çox ərazini əhatə etdiyi, torpaq sədd və xəndəklə əhatə olunduğu müəyyənləşmişdir. Eni 20-25 metr, dərinliyi 2-3 metr olan xəndək müdafiə məqsədilə Gülgeri çayının suyu ilə doldurulurmuş. Səddin hündürlüyü 10-12 metrdir. Səddin cənub-qərb hissəsinin orta nahiyyələrində 51 və 52 saylı bürclərin arasında aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, “sədd”, əslində çiy kərpicdən inşa olunmuş müdafiə divarlarının qalıqlarıdır. Bu divarlar standart ölçülü 40-43x40-43 sm çiy kərpiclə hörülmüş və bərkidici məhlul kimi gildən istifadə edilmişdir (Khalilov, 2010). “Torpaqqala” adlı kurqan Dərbənd rayonunun Məmmədqala kəndindən 3 km qərbdə yerləşir. Kurqanın hündürlüyü 6,22m, diametri 66 m-dir. Bu kurqan daha qədim dövrə aiddir. Onun torpaq örtüyü altında isə ilk orta əsr katakombası aşkar edilmişdir. 1981-ci ildə V.M.Kotoviç Dərbənd şəhərindən şimalda Məmmədqala kəndi (Dərbənd rayonu) yaxınlığında yerləşmiş Torpaqqala abidəsində tunc dövrü kurqanına salınmış V-VII əsrlərə aid edilən katakomba qəbrini aşkar etmişdir. (Rubas kəndi) Dərbənd rayonunda yerləşən Palasa – sırt kurqanında 1986-cı ilədək tədqiqatlar aparmışdır. Bu illər ərzində IV-V əsrlərə aid 61 kurqan tədqiq edilmiş, həmin kurqanların altında katakomba qəbirləri ilə yanaşı sapma və torpaq qəbirlər də aşkar olunmuşdur (Gmyrya, 1993, s. 38-44; Khalilov, 2009, s. 52-56 ). M. Hacıyev 1986-cı ildə çapdan çıxmış “Cənubi Dağıstanın son alban və ilk orta əsr dövrlərinə ( I-VII əsrlər) aid qəbr abidələri” məqaləsində

ilk orta əsr Albaniyanın indiki Dağıstan hissəsindəki qəbir abidələri nəzərdən keçirilir və tiplərə görə qruplaşdırılır. Dəfin ayinləri və etnoqrafik paralellər üzə çıxarılır (Gadzhiyev, 1986, s. 78-89; Khalilov, 2009, s. 88-89). L.Qımırya 1993-cü ildə nəşr etdirdiyi "Xəzəryanı Dağıstan xalqlarının böyük köçü dövründə Qəbir abidələri" monoqrafiyasında Albaniyanın indiki Cənub - Şərqi Dağıstan bölgəsində yayılmış müxtəlif tipli qəbir kameralarına malik kurqanların ümumi elmi təhlilini aparmış, ilk orta əsr kurqanlarını torpaq, katakomba, daş qutu və sapma qəbr kameralarının üzərində ucaldılan qəbir abidələri olduğu qənaətinə gəlmişdir. Belə kurqanların böyük əksəriyyəti Dərbənd rayonunda qeydə alınmışdır ((Gmyrya, 1993, s. 37-38). Dərbənd rayonu Cəmikənd Palasa-sırt kurqanlardan dəfn üçün bir neçə dəfə istifadə olunduğu halları Torpaqqala (Dərbənd rayonu) kurqanında, o cümlədən Mil düzündəki Üçtəpə kurqanında da qeydə alınmışdır (Khalilov, 2009, s. 82-83). Maskutlar Orta Asiyadan köç edərək kurqanlar ucaltmaq adətini Albaniyaya gətirmişdilər. Hunlar da bu qəbilə birliyinə daxil olmuşdur. İlk dəfə K. F. Smirnov Dərbənd rayonundakı Cəmikənd kurqanlarını hun qəbirləri ilə əlaqələndirmişdir (Smirnov, 1972, s. 73-81). Qeyd edək ki, Albaniyanın ilk orta əsr qəbir abidələri və dəfn ayinlərini istər arxeoloji, istərsədə nəzəri məsələlərinin tədqiqi bu arxeoloji abidələrin arealını müəyyənləşdirilməsində, eləcədə mənəvi mədəniyyət aspektlərinin etno-mədəni kimliyinin aydınlaşdırılmasında olduqca maraqlı faktlar ortaya çıxardır. 1972-1973-ci ildə R.B.Göyüşov Bərdə şəhərinin "Məbəd yeri" adlı sahəsində arxeoloji qazıntı işləri aparmış, burada VII-VIII əsrlərə aid alban xristian qəbri aşkar edilmişdir (Geyushev, 1973, s. 19-20). Xristian qəbir abidələri sırasına sərdabələr, daş sarakofaqlar, daş qutu, torpaq və çiy kərpic qəbirləri daxil edilmişdir. "Qafqaz Albaniyasının qəbir abidələrində ənənələr və innovasiyalar", "Qafqaz Albaniyasının dəfn ayinlərinin tipologiyası və inkişaf qanunauyğunluqları haqqında (IV-VIII əsrlər)" tezisi Qafqaz Albaniyasının antik və ilk orta əsr qəbir tipləri müqayisəli o cümlədən ümumiləşdirilmiş formada təhlil edilir.

İlk orta əsrlərdə Albaniya ərazisində müxtəlif qəbir tiplərinin yayılması, Albaniyada mədəniyyət ocaqları kimi qeyd etmək olar. Qəbir tiplərinin müxtəlifliyi və Albaniya qəbilələrinin qarşılıqlı inteqrasiya prosesinin getməsindən irəli gəlir. Antik dövrdə Albaniya ərazisində Cənubi-şərqi Dağıstan ərazisində çox az miqdarda qeydə alınmışdır. Antik dövrdə təsadüf edilməyən, lakin xristianların dəfn praktikasında qeydə alınan bəzi qəbir tiplərinin ( daş sarkofaqlar, bişmiş kərpicdən inşa edilən sərdabələr) Albaniyada yayılması Ön Asiyadan gəlmə xristian missonerlərinin fəaliyyəti ilə bağlı olması ehtimal olunur (Khalilov, 2009, s. 89). Küp qəbirlər arxeoloji "mədəniyyət"nin xranologiyası e.ə. IV- e.VIII əsrlər çərçivəsində müəyyənləşdirilərkən nəzərə alınmır ki, küp qəbirləri antik dövrdə bütün Cənubi Qafqaz və Ön Asiya regionlarında yayılmışdır. Deməli küp qəbir hər hansı mədəniyyətin etnik əlaməti

ola bilməzdir. Albaniyada xüsusi bir arealı olmamışdır. Bu qəbirlər bir sıra hallarda digər qəbir tipləri ilə eyni bir qəbir abidəsində və ya bölgədə qeydə alınmışdır. Küp qəbirləri digər qəbir tipləri ilə birlikdə vahid erkən alban mədəniyyətinə aid olub, ilk orta əsrlərdə bu mədəniyyətin davamı kimi çıxış edən alban bütpərəst mədəniyyətinə daxil olmuşdur (Khalilov, 2009, s. 89). 2004-cü ildə tədqiqata cəlb edilən abidələrdən biri (Torpaqqala) Bəyimli qalasıdır. 2013-2015-ci illərdə kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri zamanı V- VIII əsrlərə aid xeyli tikinti qalıqları, istehsalat ocaqları və digər maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Yerli sakinlər tərəfindən bu abidəni "Torpaqqala" adlandırıldığı qeyd olunur. Ağsu rayonunun Bəyimli kəndi ərazisində, Girdiman çayının sol sahilində yerləşən Bəyimli qalası – və ya "Torpaqqala" abidəsinin ərazisi 9 hektardır. İlk orta əsr şəhərləri üçün səciyyəvi olan möhtəşəm qala divarları ilə möhkəmləndirilməsi, bir neçə əsr ərzində intensiv həyat olması çoxlu sayda istehsalat qalıqları, təsərrüfat və məişət vasitələrinin tapılması faktı əsas gətirilərək Bəyimli qalasının Azərbaycanın ilk orta əsr şəhərlərindən biri olması təsdiq edilir. Şəhər həyatının təqribən V əsrin sonu- VI əsrin əvvəllərindən başlandığı, IX əsrin əvvəllərinədək davam etdiyi qeyd olunur (Jabiyev, 2018, s. 162-167). Qədim Bərdə torpağına XX əsrin 80-ci illərindən kəşfiyyat xarakterli tədqiqat işləri ilə əlaqədar səfərlərlər etmişlər. 1984-2004-cü ildə A.B.Nuriyevin rəhbəri olduğu Bərdə arxeoloji ekspedisiyası Bərdə şəhərində 4 mədəni təbəqə aşkarlamışdır. Onlardan ən zəngini IX-XIII əsrin əvvəllərinə aid edilən qalınlığı 3 m-dən çox olan mədəni təbəqədən aşkar edilmiş yaşayış evləri, ictimai binalar, sənətkarlıq-ticarət tikililəri, su və kanalizasiya xətlərinin qalıqları, təndirlər, çoxlu saxsı və metal məmulatı, sikkələr, müxtəlif memarlıq elementləri, istehsal tullantıları və. s olan maddi nümunələrindən ibarətdir

Azərbaycanda bürc tipli abidələrdən sayılan Bərdə türbəsi (XIV əsr-1322) müasir Bərdə şəhərinin mərkəzində yerləşir. Abidə iki mərtəbədən: yeraltı sərdabə və yerüstü türbədən ibarətdir. Türbənin ətrafında b.e.VII əsrinə aid torpaq divarın qalıqları vardır. Hasara alınmış bu hissə "Torpaqqala" kimi də tanınır (Aliyev & Allahverdiyeva, 2009, s. 64)._2005-2016-cı illərdə isə professor A. M. Məmmədovun rəhbərliyi altında Bərdə arxeoloji ekspedisiyası rayonun Şatırlı kəndi ərazisindəki "Şortəpə" antik və ilk orta əsrlər dövrü yaşayış yerindən arxeoloji qazıntılar zamanı müdafiə tikililərinin qalıqları, nekropolu və digər maddi-mədəniyyət nümunələri aşkar olunaraq tədqiq edilmişdir. "Şortəpə" yaşayış yerinin Qafaqaz Albaniyasının Anariaka şəhəri olduğu fikri əsaslandırılmışdır. İlk orta əsrlərin başlanğıcında Azərbaycanın ictimai–siyasi və sosial-mədəni həyatında Bərdənin ticarət əhəmiyyətli şəhər olduğunu təsdiqləyən maddi mədəniyyət nümunələrini şəhərin yaşının 2500 ildən artıq olduğu

sübuta yetirilmişdir. Bərdə Qafqaz Albaniyasının Uti vilayətinin baş şəhəri kimi təqdim olunur.

Alban hökmdarları II Vaçenin (440-463) və III Mömin Vaçaqanın(488-510) hakimiyyəti dövründə bütpərəst əhaliyə qarşı mübarizə aparıldığından əhali xristianlığı qəbul edir. Şortəpənin bütpərəst əhalisi də xristianlığı qəbul edərək Torpaqqalada məskunlaşır. Bərdənin mərkəz şəhər olaraq Tunc dövründə Balatəpədə, Antik dövürdə və ilk orta əsrlərin başlanğıcında Şortəpədə (Anariaka), İlk orta əsrlərdə (V-VI) isə Torpaqqalada yerləşdiyi qeyd olunur (Mammadov, 2017, s. 234-235). Arxeoloji tədqiqatların nəticələri Bərdə şəhər yerində orta tunc dövrünün sonlarından etibarən şəhər mədəniyyətinin meydana gəldiyini, Şortəpədə müdafiə divarlarına malik şəhər yerinin formalaşdığını və sonralar Torpaqqala ərazisində şəhər həyatının davam etdiyini söyləməyə əsas verir. XXI əsrin ikinci onilliyində Qax rayonunun Tarpaqqala adlı abidəsində qazıntı işlərinə başlanılmışdır. Xatırladaq ki, 2009-cu ildə Torpaqqalanın mərkəzi hissəsində Vilayət Kərimov tərəfindən arxeoloji qazıntı işlərini 100 kv metr ərazidə aparılmış, antik və ilk orta əsr mədəni təbəqələr müəyyənləşdirilmiş və bir çox maddi mədəniyyət nümunələrinin aşkar edilməsinə nail olmuşdur.

2023-cü ilin tədqiqat mövsümündə "Şimal – qərbi Azərbaycanın alban dövrü arxeoloji abidələri" ekspedisiyası Qax rayonun Ləlәli kəndi ərazisində yerləşən Torpaqqala abidəsində ilkin arxeoloji tədqiqat işləri aparmışdır. (*GPS koordinatları: 41°20΄46. 47"N, 46°40΄44.72"E)* Abidənin ümumi sahəsi 20 ha yaxındır. Üç hissəni özündə birləşdirən abidə; yaşayış yeri, istehkam hissəsi və nekropoldan ibarətdir (Aliyev & Yusifova 2023, s. 70-72). İstehkam deyilən hissədə 50x70 m ölçüdə 0,35ha sahəni əhatə edən ərazidə iki hissədə yoxlama şurfu qoyulmuşdur. Şimal-qərb hissədə 100 kv metr qazıntı sahəsi seçilərək tədqiqata cəlb edilmişdir. A1 kvadratında istehkamın möhrədən ibarət tikilinin bünövrəsi 80 sm dərinlikdə açılmışdır. Divarın bünövrəsi üçün iri və orta həcmli çay daşlarından istifadə edilən üzərində isə 10x20x20 sm, 10x20x30 sm ölçüdə möhrədən onların arasında isə 2 sm qalınlığında kirəc məhlulundan istifadə edilmişdir. Tərəfimizdən qazıntı sahəsinin qərb hissəsində müdafiə divarı, oradan şərqdə yerləşən möhrə tikili və döşəmələr, otaqlar, çay daşından dairəvi formada salınmış ( biri böyük, üçü kiçik olmaqla) mədəni təbəqələr struktur olaraq ilkin tədqiqata cəlb edildi. İlkin arxeoloji qazıntı işlərinə əsasən mədəni təbəqələri 4 dövr üzrə müəyyənləşdirməyə əsas verir. Bizə məlum olan mədəni təbəqələr yuxarıdan aşağıya doğru klassik orta əsr (IX-XIII), ilk orta əsr (III-VIII), antik dövr (e.ə IV- b.e.III əsrləri) və erkən dəmir dövrünün son mərhələsi olaraq davam etdir. Qazıntı sahəsindən aşkar olunmuş saxsı nümunələri qara, qırmızı, boz, sarı-qırmızımtıl rəngli olmaqla qulp, oturacaq, gövdə, ağız, boğaz, lülək fraqmentlərdən ibarət olmuşdur. Dulus məmulatı küpə, küp,qazan, dopu tipli qablara məxsusdur.

Obsidianlardan bəzisi kiçik həcmli kəsici aləti xatırladır. İlk tədqiqatlar sözügedən ərazinin mühüm yaşayış yerlərindən biri olduğunu, onun antik və ilk orta əsrlərdə şəhərtipli məntəqə olduğunu söyləmək ehtimalını artırır (Aliyev & Yusifova, 2023, s. 70-72).

**Nəticə**

Arxeoloji qazıntılar sübut edir ki, yerləşdiyi təbii-coğrafi mövqeyindən aşlı olaraq təyinatına, inşaat texnikasına görə "Torpaqqala" adlı şəhər tipli yaşayış yerlərinin qalıqlarıantik və ilk orta əsr feodal dövlətimiz olan Albaniyanın inzibati - ərazi vahidliyində olub. Dövlətin ərazi sərhədləri zamanla siyasi səbəblər üzərindən sabitliyini saxlaya bilməmiş,dəyişikliyə məruz qalmışdır. Qafqaz Albaniyasının inzibati ərazi vahid olan şimal-qərb və qərb bölgəsində ilk orta əsr şəhərlərinə xas olan cəhətlərin tədricən mərkəzləşdiyi Torpaqqala arxeoloji abidələri Antik dövr və ilk orta əsrlərdən başlayaraq iqtisadi - mədəni əlaqələr baxımından əlverişli təbii-coğrafi mövqedə yerləşirdi. Yaxın və Orta Şərqin inkişaf etmiş ölkələri ilə iqtisadi və ticarət əlaqələrinin yerli istehsala, eləcə də şəhər həyatının inkişafına təsirləri əldə edilən artefaktlar, tikinti qalıqlarının inşaat xüsusiyyətlərində eləcə də bölgədə gedən etno-mədəni proseslərdə - qəbir abidələrinin tipologiyasında oxşarlığın olduğunu müəyyən etməyə imkan verir. Yaxın gələcəkdə bölgədə tədqiqatların aparılması zəruridir və arxeoloji qazıntı işlərinin davam etdirilməsi bölgədəki etno-mədəni proseslərin, o cümlədən həyatın fasilələrlə davam etməsinin və ya tənəzzülün əsas səbəblərinin iqtisadi, siyasi və etno-mədəni proseslərə təsirinin aydınlaşdırılmasına zəmin yaratmış olacaq.

**Ədəbiyyat**

Aliyev, T. V. & Allahverdiyeva L. A.(2009). Medieval architectural monuments of Barda. *Historical archeology, ethnography of Karabakh and the 3000 th anniversary of the city of Barda Materials of the scientific practical conference.* Baku.

Aliyev, T. V. & Yusifova, D. S. (2023). *On the preliminary archaeological excavation in Torpaggala* [Thesis of the Scientific Session]. Baku.

Gadzhiyev, M. S.(1986). Pogrebal'nyye pamyatniki Yuzhnogo Dagestana pozdne albanskogo i ranne srednevekovogo vremeni (I-VII vv). Obryady i kul'ty drevnego i sreddne vekogo naseleniya Dagestana.*Makhachkala,* 71-89.

Gasimov, E. A. (2002). *History of water supply of medieval cities of Azerbaijan (IX-XV centuries).* archaeological research. Adiloglu publishing house.

Geyushev, R. B. (1973). O tipologiye zakonomernostya khrazvitiya pogrebal'nykh ob ryadov Kavkazskoy Albanii ( IV-VII vv).*MSPIPA 1972-1973 gg.v SSSR*. Baku, 19-20.

Gmyrya, L. B. (1993). Prikaspiyskiy Dagestan v epokhu Velikogo pereseleniya narodov. Mogil'niki. *Makhachkala,* 37, 38, 154.

Jabiyev, G. C. (2018). Basics of Azerbaijani archeology Baku, "Science and life" 596 pag.

Khalilov, M. C. (2009). *Grave monuments of Albania (IV-Khasrlar) Baku.* Nafta-Press.

Khalilov, M. C. (2010). *Habitations of Albania (IV-X centuries).* Baku.

Mammadov, A. M. (2017). The results of archaeological excavations and field research in Barda in 2015-2016. *Archaeological research in Azerbaijan,* 234-245.

Nerazik E. E. & Rapoport, YU.A. (1981). *Gorodishe Toprak-kala (raskopki 1965-1975gg) Trudy Khorezmskoy arkheo–etno ekspeditsii t.XII.* Izdatel'stvo Nauka.

Pakhomov, Ye. A. (1938). Arkheologicheskoye ekspeditsii po rayonam Azerb. *SSR.Izv.Azerb.FAN . SSSR,* 3, 31-32.

Salvini, M. (2006). *Urartu Tarihi ve Kültürü.* Arkeoloji ve Sanat.

Smirnov, K. F. (1972). Sarmatskiye katakombnyye pogrebniya Yuzhnogo Priural'ya. *Povolzh'ya i ikh otnosheniye k katakombam Severnogo Kavkaza.* 1, s.73-81.

Vahidov, R. M. & Guliyev, N. M. (1974). The report of the 1974 field research work of the Toprakgala (Tovuz district) detachment of the Shamkhor archaeological expedition. *Republic of Azerbaijan TI EA No*. 301, 3-6.

Vaidov R. M. (1965). Pervıye itogi arkheologicheskikh rabot v Torpagkale. *MKA, s VI , Izd. AN Azerb.SSR,* 201-210.